# Fidel Kastrodan mükafat alan heykəltəraş

## *Kamal Vəliyev deyir ki, daşla söhbətləşmək insanlarla ünsiyyət qurmaqdan daha asandı*

*Kamal Vəliyev çörəyi daşdan çıxan insanlardandı. İcraçı heykəltəraş kimi təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da yaxşı tanınır. Mərmər və qranit daşlardan hazırlanan, bu gün Bakını və digər şəhərlərimizi bəzəyən heykəlləri bacarıqla icra edib. Kubanın paytaxtı Havanada Leninin abidəsi üzərindəki əməyinə görə əfsanəvi Fidel Kastronun şəxsi mükafatına layiq görülüb. Kuba inqilabının lideri ilə görüşlərini bu gün də məmnunluqla xatırlayır.*

*Qazandığı uğurlar üçün çiyin-çiyinə çalışdığı görkəmli heykəltəraşlarımıza borclu olduğunu deyən həmsöhbətimin 65 illik yubileyi ərəfəsində Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda ilk fərdi sərgisi təşkil olundu.*




**- Kamal bəy, yubiley və ilk fərdi sərginin açılışı ilə bağlı təbrikləri eyni vaxtda qəbul edirsiz...**

- Azərbaycanda təşkil olunan müxtəlif sərgilərdə iştirak etmişəm. Tale elə gətirdi ki, ilk fərdi sərgim 65 illik yubileyim ərəfəsinə düşdü, sözün açığı, çox həyəcan keçirirdim. Açılış mərasimində iştirak edən sənətkarların, həmkarlarımın və sərgiyə gələn sıravi insanların münasibəti mənim üçün çox önəmli idi. Səslənən fikirlərdən, reaksiyalardan belə başa düşdüm ki, sərgidəki əsərlərim maraqla qarşılandı. İndi bir qədər rahat nəfəs almağa və sevinməyə dəyər. Qazax Rayon İcra Hakimiyyətindən zəng edib maraqlandılar, mənim üçün doğma olan bu rayonda da sərgim təşkil ediləcək. Həmyerlilərim qarşısında yaradıcılıq hesabatı vermək çox maraqlıdı. Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına həsr edilən sərgiyə də dəvət almışam. Görürsüz də, yaradıcılıqla bağlı işlər çoxdu.

**- Sizi xoşbəxt taleli insan hesab etmək olar, çünki Cəlal Qaryağdı, Mirəli Mirqasımov kimi görkəmli heykəltəraşlarla birgə çalışmısınız. Adətən deyirlər ki, böyük sənətkarlar öz bildiklərini şagirdlərinə öyrətməkdə xəsislik edir, davamçı yetişdirməkdə o qədər də maraqlı olmurlar...**

- İncəsənətin digər sahələrini deyə bilmərəm, amma heykəltəraşlıqda tam fəqrlidi, hər halda mən belə görmüşəm. İcraçı heykəltəraş kimi Cəlal Qaryağdının yanında başlamışam, Cəlal müəllim bildiyini ötürməyə nəinki xəsis idi, əksinə, adamı öyrənməyə məcbur edirdi. Mirəli Mirqasımovu da bu baxımdan əsl ustad saymaq olardı. Allah hər ikisinə rəhmət eləsin, sözün əsl mənasında həm böyük sənətkar, həm də gözəl insan idilər, biz gəncləri öyrətmək eşqi ilə yaşayırdılar. Sonrakı dövrlərdə isə Ömər Eldarov, Fazil Nəcəfov kimi mogikanlarla çalışmağa başladım. Ömər Eldarov Azərbaycanın müxtəlif şəhərlərində Ümummilli Lider Heydər Əliyevin heykəllərini ucaldıb. Həmin heykəllərin demək olar ki, hamısını mən icra etmişəm.

**- Bioqrafiyanızda bir Kuba dövrü də var. "Azadlıq adası" deyilən bu uzaq ölkəyə getməyinizin tarixçəsini bilmək maraqlı olardı...**

- 80-ci illərin əvvəlləri idi, bayaq adını ehtiramla xatırladığım Mirəli Mirqasımovun Bakıda, metronun "28 may" stansiyasının yanındakı möhtəşəm "Cəfər Cabbarlı" abidəsini yenicə icra edib tamamlamışdım. Həmin ərəfədə SSRİ Mədəniyyət Nazirliyindən Kubaya getməklə bağlı təklif aldım. Mən, Rusiyadan daha 5 rəssam və heykəltəraş Leninin Havanadakı abidəsini hazırlamaq üçün Kubaya yaradıcılıq ezamiyyətinə göndərildik. Marat adlı tələbəm var idi, onu da özümlə götürdüm. Bizə tapşırılan bu çətin işin icrası ilə bağlı bütün məsuliyyət mənə həvalə edilmişdi, çox maraqlı günlər idi.



**- Kuba inqilabının lideri Fidel Kastro ilə ilk görüşünüzü necə xatırlayırsız?**

- Havanaya gedəndən cəmi bir həftə sonra Fidel Kastro bizi öz iqamətgahında qəbul etdi. Tək Kubada deyil, bütün sosialist düşərgəsində əfsanə kimi qəbul edilən Kastronun elə ilk görüşümüzdə necə sadə, səmimi bir insan olduğunu gördüm. Bizimlə mehribancasına söhbətləşdi, işlərimizin gedişi ilə maraqlandı, birgə qəhvə içdik. Elə bir səmimi şərait yaratdı ki, kənardan baxan bizimlə uzun illərin yaxın dostu olduğunu düşünərdi. Hətta arada zarafatından da qalmadı. Mən də onun səmimiliyindən ürəklənib görüşün sonunda məxsusi onun üçün masaya qoyulan siqardan birini götürdüm. Orada çalışdığım müddətdə Kastro ilə daha bir neçə dəfə görüşdüm.

**- Leninin abidəsi xoşuna gəldi?**

- Əvvəla onu deyim ki, Havanada Leninə abidə ucaldılmasına həm SSRİdə, həm də Kubada çox prinsipial məsələ kimi yanaşırdılar. Bizim üçün hər cür şərait yaradılmışdı, hətta sərgimizi də təşkil etmişdilər. Təəssüf ki, mənimlə birgə çalışan ruslardan ikisi bu şəraitdən sui-istifadə edib içkiyə qurşandı, ona görə də 6 aydan sonra geri göndərildilər. Bir il dörd aydan sonra nəhayət Leninin abidəsi hazır oldu. Açılış mərasimində Fidel Kastro, qardaşı Raul Kastro, paytaxtın baş memarı iştirak elədi. Sonra parkdakı restorana dəvət etdilər, ziyafət verildi, mənim və abidə üzərində çalışan həmkarlarımın ünvanına xoş sözlər deyildi. Kastro imzaladığı diplomu mənə təqdim etdi, həmin mükafatı dəyərli bir hədiyyə kimi saxlayıram.

Vətənə qayıtmazdan öncə mənə Kubada qalıb Havanadakı ali məktəblərin birində dərs demək təklif olundu, özü də o dövr üçün çox cəlbedici şərtləri var idi. Amma mən imtina etdim.

**- Niyə?**

- Gənc idim, yeni ailə qurmuşdum, Moskvadan isə ailəmi Kubaya aparmağa icazə verilmədi, çünki sovet dövrünün özünəməxsus sərt qadağaları var idi. Gördüm heç cür alınmır, ona görə də Bakıya qayıtmalı oldum.

**- Sonralar Kubaya heç yolunuz düşdümü?**

- Üç il öncə turist kimi getdim. Bir il dörd ay yaşadığım Havananın küçələrini yenidən gəzib-dolaşdım, həmin unudulmaz günləri xatırladım. Kubanın Bakıdakı səfirliyi öncədən məlumat göndərmişdi, ona görə məni çox yaxşı qarşıladılar, hara getdimsə isti münasibət göstərdilər.

**- Leninin abidəsi yerində idi?**

- Əlbəttə. Yerli əhali və turistlər bu gün də həmin abidəyə maraqla tamaşa edir.

**- Sakit təbiətli, mülayim xasiyyətli Kamal Vəliyev sərt qranitlə, mərmərlə necə dil tapa bilir?**

- Çox asan dil tapıram. Mənim üçün daşla ünsiyyət qurmaq insanlarla danışmaqdan asandı. Desəm ki, daş mənim üçün hər şeydir, səmimiyyətimə inanın.

**Etibar CƏBRAYILOĞLU**



ədalət.-2017.-29 aprel.-S.7.